# İSTANBUL KONVENSİYASI HAQQINA MİFLƏR VƏ FAKTLAR

## Azərbaycanda İstanbul Konvensiyası və digər gender bərabərliyi standartlarına dair məlumatlılığın artırılması



Avropa İttifaqı
və Avropa Şurası
tərəfindən maliyyələşdirilir

AVROPA İTTİFAQI

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE

Avropa Şurası tərəfindən
icra edilir

# İSTANBUL KONVENSİYASI HAQQINDA MİFLƏR VƏ FAKTLAR

## Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Avropa Şurası Konvensiyası

Müəllif:
**Leyla Mədətli**
Yerli mütəxəssis

Avropa Şurası

*Bu broşura  Avropa İttifaqının və Avropa Şurasının birgə maliyyələşdirdiyi "Azərbaycanda İstanbul Konvensiyası və digər gender bərabərliyi standartlarına dair məlumatlılığın artırılması" layihəsi çərçivəsində hazırlanıb.*

Bu materialda ifadə edilmiş rəylərə görə məsuliyyəti müəlliflər daşıyır və həmin rəylər Avropa Şurasının və Avropa İttifaqının rəsmi mövqeyini əks etdirməyə bilər.

*Bu nəşr tipoqrafik və qrammatik səhvləri düzəltmək üçün SPDP Redaksiya Şöbəsi tərəfindən redaktə olunmamışdır.*

*Bu sənədin mətninin hamısının və ya bir hissəsinin təkrar nəşri və ya tərcüməsi ilə bağlı bütün sorğular Kommunikasiya Direktorluğuna (F-67075 Strasbourg Cedex və ya publishing@coe.int) ünvanlanmalıdır.*

Bu sənədin bir hissəsinin (500 sözə qədər) təkrar nəşrinə kommersiya məqsədləri istisna olmaqla icazə verilir, o şərtlə ki, mətnin bütövlüyü saxlanılsın, kontekstdən kənara çıxmalar olmasın, mətnin mahiyyəti, əhatə dairəsi və məzmunu natamam məlumat təqdim etməsin, yaxud oxucunu yanlış yönləndirməsin. İstinad mətn həmişə aşağıdakı kimi qeyd edilməlidir: "
© Avropa Şurası, 2021".

Bu sənədin hamısının və ya bir hissəsinin təkrar nəşri və ya tərcüməsi ilə bağlı bütün digər müraciətlər Kommunikasiya Direktorluğuna (F-67075 Strasbourg Cedex və ya publishing@coe.int) ünvanlanmalıdır.

Bu sənədlə bağlı bütün digər yazışmalar Demokratiya uzrə Baş Direktorluğun Gender bərabərliyi bölümünə (F-67075 Strasbourg Cedex və ya vaw.gender.cooperation@coe.int) ünvanlanmalıdır.

Üz qabığı və tərtibat: 360 MARCOM

Üz qabığındakı şəkil: Gursimrat Ganda, Unsplash

Sənəddəki illustrasiyalar: İnnovations Center LLC

©Avropa Şurası, avqust 2022-ci il

İstanbul Konvensiyası haqqında

# MİFLƏR VƏ FAKTLAR

# 1 MİF

İstanbul Konvensiyasının məqsədi ailə həyatı və ya ailə strukturunu tənzimləməkdir və bu, ənənəvi Azərbaycan ailəsinin məhvinə səbəb ola bilər.



# FAKT

İstanbul Konvensiyası nə "ailə"nin tərifini verir, nə də onu tənzimləyir. Konvensiyanın yeganə məqsədi qadınlara qarşı zorakılıq və məişət zorakılığına son qoymaqdır. Konvensiya, uşaqlar da daxil olmaqla, qurbanlara əziyyət verən ailədaxili zorakılığın sükutla qarşılanmasını aradan qaldırmağa çalışır. Qadını öldürmək və ya döymək "şəxsi məsələ" deyil. Ailə üçün əsl təhlükə zorakılığın özüdür. Azərbaycan qanunvericiliyi məişət zorakılığını qadağan edir. İstanbul Konvensiyası zorakılıq qurbanlarını dəstəkləmək və müdafiə etmək üçün sistemi gücləndirmək və qadınlara qarşı zorakılığın aradan qaldırılmasına bir addım daha yaxınlaşmaq imkanı yaradır.

# 2 MİF

İstanbul Konvensiyası Azərbaycan qanunvericiliyinə eynicinsli nikah, eləcə də "cinsi oriyentasiya" və "gender mənsubiyyəti" anlayışlarını gətirəcək.



# FAKT

İstanbul Konvensiyası gender mənsubiyyəti və cinsi oriyentasiya ilə bağlı nə yeni standartlar müəyyən edir, nə də dövlətlərdən eynicinsli cütlüklərin hüquqi cəhətdən tanınmasını tələb edir. Gender mənsubiyyətinə və ya cinsi oriyentasiyasına görə ayrı-seçkiliyə məruz qalmama tələbi İstanbul Konvensiyasının gətirdiyi yenilik deyil. Bu, əsas insan hüququdur ki, Azərbaycanın, 2002-ci ildən tərəf olduğu Avropa İnsan Hüquqları Konvensiyası da daxil olmaqla, ratifikasiya etdiyi digər Konvensiyalarda da öz əksinin tapıb. İstanbul Konvensiyası xüsusiyyətlərindən asılı olmayaraq bütün zorakılıq qurbanlarını müdafiə və dəstəklə təmin edir.

# 3 MİF

İstanbul Konvensiyası Azərbaycan qanunvericiliyinə Azərbaycana xas olmayan “gender” anlayışını gətirir.



## FAKT

“Gender” və “gender bərabərliyi” anlayışları Azərbaycan qanunvericiliyi üçün yenilik və ya ona zidd deyil. Azərbaycan Respublikasının “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Qanunu, “gender” anlayışını “ictimai həyatın bütün sahələrində kişi və qadın münasibətlərinin sosial cəhəti” kimi, “gender bərabərliyi”ni isə “qadın və kişilərin hüquq bərabərliyi və bu hüquqların həyata keçirilməsi üçün bərabər imkanlar və onların cəmiyyətdə bərabər sosial vəziyyəti” kimi müəyyən edir. Buna görə də, İstanbul Konvensiyasındakı “gender” anlayışı Azərbaycan qanunvericiliyində yenilik deyil.

# 4 MİF

İstanbul Konvensiyası Avropanın bizə qəbul etdirmək istədiyi xarici sənəddir.




# FAKT

İstanbul Konvensiyasının hazırlanmasında Azərbaycanlı ekspertlər də iştirak ediblər, Konvensiyanın mətni Azərbaycan dövlət qurumlarının nümayəndələrinin də iştirakı ilə yekdilliklə qəbul edilib. Gender bərabərliyinin təşviqi, Avropa İnsan Hüquqları Konvensiyası və Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında BMT Konvensiyası da daxil olmaqla, Azərbaycanın tərəf olduğu digər müqavilələrdə əks olunub. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən insan hüquqları və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir. İstanbul Konvensiyası isə insan hüquqlarının müdafiəsinin təkmilləşdirilməsinə və qadınlara qarşı zorakılığın aradan qaldırılmasına töhfə verir.

İstanbul Konvensiyası kimi tanınan Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Avropa Şurasının Konvensiyası bütün qadınların zorakılıqdan azad bir həyat yaşamasını təmin etməyə çalışır. Buna baxmayaraq İstanbul Konvensiyasının dövlətlərdən nə tələb etdiyinə və təcrübədə vətəndaşlar üçün nə ifadə etdiyinə dair bir çox yanlış fikirlər mövcuddur. Bu broşura İstanbul Konvensiyasının əslində nəyə nail olmaq istədiyini göstərmək və onunla bağlı mifləri və yanlış təsəvvürləri aradan qaldırmağa kömək etmək məqsədi daşıyır.

AZE

Avropa İttifaqına Üzv Dövlətlər öz təcrübələrini, resurs və müqəddəratlarını birləşdirmək qərarına gəlmişlər. Onlar birlikdə sabitlik, demokratiya və davamlı inkişaf zonası qurmuş, eyni zamanda mədəni müxtəlifliyi, tolerantlıq və fərdi azadlıqlarını qoruyub saxlamışlar. Avropa İttifaqı hüdudlarından kənarda olan ölkə və xalqlarla öz nailiyyət və dəyərlərini bölüşmək öhdəliyinə sadiq qalır.

**http://europa.eu**

Avropa Şurası qitənin insan hüquqlarının müdafiəsi sahəsindəki aparıcı təşkilatdır. O, Avropa İttifaqının bünün üzvləri də daxil olmaqla 46 üzv dövlətdən ibarətdir. Avropa Şurasının bütün üzv dövlətləri insan hüquqlarını, demokratiyanı və hüququn aliliyini qorumaq üçün nəzərdə tutulmuş Avropa İnsan Hüquqları Konvensiyasını imzalayıb. Avropa İnsan Hüquqları Məhkəməsi Konvensiyanın üzv dövlətlərdə həyata keçirilməsinə nəzarət edir.

**www.coe.int**

Avropa İttifaqı
və Avropa Şurası
tərəfindən maliyyələşdirilir

AVROPA İTTİFAQI

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Avropa Şurası tərəfindən
icra edilir